**Azərbaycan Respublikasının ~~Prezidenti yanında~~ Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında** [i][1]

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında qiymətli kağızlarla fəaliyyət, o cümlədən qiymətli kağızlar bazarının formalaşması və inkişafı sahəsində dövlət siyasətini və idarəetməsini həyata keçirən Azərbaycan Respublikasının ~~Prezidenti yanında~~ Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi məqsədi ilə **qərara alıram:**

~~1. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).~~ [ii][2]

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının ~~Prezidenti yanında~~ Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi qiymətli kağızlarla fəaliyyət sahəsində, o cümlədən qiymətli kağızlar bazarında, digər mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə münasibətdə üstün səlahiyyətlərə malikdir və bu sahədə onların fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

3. Müəyyən edilsin ki:

"Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 2-ci hissəsində (qiymətli kağızlarla fəaliyyət sahəsində ayrı-ayrı fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya)) verilməsi qaydalarının və xüsusi razılıq (lisenziya) üçün dövlət rüsumunun müəyyən edilməsi və dövlət rüsumunun ödənilməsi qaydalarının təsdiq edilməsi istisna olmaqla), 4-cü maddəsinin 4-cü və 5-ci hissələrində, 5-ci maddəsinin 2-ci, 3-cü, 4-cü, 5-ci və 6-cı hissələrində, 6-cı maddəsinin 2-ci və 6-cı hissələrində, 8-ci maddəsinin 7-ci və 9-cu hissələrində, 12-ci maddəsinin 4-cü hissəsində, 13-cü maddəsinin 4-cü və 5-ci hissələrində, 15-ci maddəsinin 2-ci və 3-cü hissələrində, 24-cü maddəsinin 11-ci hissəsində, 26-cı maddəsinin 4-cü hissəsində, 29-cu maddəsində və 31-ci maddəsinin 5-ci və 9-cu hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın, habelə həmin Qanunun 6-cı maddəsinin 6-cı hissəsində, 14-cu maddəsinin 1-ci və 3-cü hissələrində, 15-ci maddəsinin 1-ci və 2-ci hissələrində və 31-ci maddəsinin 6-cı hissəsində nəzərdə tutulmuş "qeydiyyat orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının ~~Prezidenti yanında~~ Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi həyata keçirir;

(çıxarılıb) [iii][3]

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki:

15 gün müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin xərclər smetasını təsdiq etsin;

bir ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə tapşırılsın ki:

qiymətli kağızlarla fəaliyyət sahəsində ayrı-ayrı fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarını bir ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

xüsusi razılıq (lisenziya) üçün dövlət rüsumunun məbləğinə dair təklifləri və dövlət rüsumunun ödənilməsi qaydalarının layihəsini bir ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

qiymətli kağızlar sahəsində fəaliyyətin, o cümlədən qiymətli kağızlar bazarının dövlət tənzimlənməsini həyata keçirmək məqsədi ilə qanunvericiliklə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair normativ-hüquqi aktları üç ay müddətində hazırlayıb qəbul etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyətləri daxilində "Qiymətli Kağızlar haqqında" Azərbaycan Respublikası Qanunundan və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

~~6. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin mərkəzi aparatının işçilərinin son say həddi 75 vahid müəyyən edilsin.~~

~~7. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədrinə tapşırılsın ki, Komitənin mərkəzi aparatının strukturunu və ştat cədvəlini bu Fərmanın 6-cı bəndinə uyğun olaraq Komitənin işçilərinin son say həddi və illik əmək haqqı ödəmə fondu daxilində 15 gün müddətində təsdiq etsin.~~

8. "Dövlət özəlləşdirmə opsionları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 578 nömrəli Fərmanında aşağıdakı dəyişiklik edilsin:

Fərmanın 2-ci bəndi qüvvədən düşmüş hesab olunsun.

9. "Dövlət özəlləşdirmə opsionları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 578 nömrəli Fərmanı ilə təsdiq olunmuş Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

3-cü bənddə "Azərbaycan Respublikasının Dövlət Əmlak Komitəsi" sözləri , 5-ci bənddə və 7-ci bəndin ikinci abzasında "DƏK" sözü, 12-ci bənddə "Azərbaycan Respublikasının Nazirlər Kabineti" sözləri müvafiq olaraq "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi" sözləri ilə əvəz edilsin.

10. "İxtisaslaşdırılmış çek investisiya fondları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 579 nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

Fərmanın 2-ci və 3-cü bəndləri qüvvədən düşmüş hesab edilsin.

11. "İxtisaslaşdırılmış çek investisiya fondları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 579 nömrəli Fərmanı ilə təsdiq olunmuş Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

1-ci bölmənin 6-cı bəndində "Azərbaycan Respublikasının Dövlət Əmlak Komitəsi (bundan sonra - DƏK)" sözləri "Azərbaycan Respublikasının Prezidenti" sözləri ilə əvəz edilsin;

2-ci bölmənin 4-cü bəndində və 8-ci bölmənin 1-ci bəndində "Azərbaycan Respublikası Nazirlər Kabineti" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi" sözləri ilə əvəz edilsin;

5-ci bölmənin 2-ci bəndinin birinci və on birinci abzaslarında, 4-cü və 6-cı bəndlərində, 6-cı bölmənin 4-cü bəndində, 7-ci bölmənin 7-ci və 8-ci bəndlərində, 9-cu bölmənin 1-ci və 5-ci bəndlərində "DƏK" sözü "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi" sözləri ilə əvəz edilsin;

5-ci bölmənin 1-ci bəndinin ikinci abzasında, 2-ci bəndinin dördüncü və beşinci abzaslarında "Azərbaycan Respublikası Maliyyə Nazirliyi" sözləri, 7-ci bölmənin 8-ci bəndində "və Maliyyə Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi" sözləri ilə əvəz edilsin.

12. "Milli Depozit Sistemi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 580 nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

Fərmanın 3-cü bəndinin üçüncü və dördüncü abzasları, 4-cü bəndi qüvvədən düşmüş hesab edilsin.

13. "Milli Depozit Sistemi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 580 nömrəli Fərmanı ilə təsdiq olunmuş Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

2-ci bölmənin 2.1-ci bəndinin dördüncü abzasında Komissiya - Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar və Fond Bazarı üzrə Komissiya" sözləri "Komitə - Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi" sözləri və 3-cü bölmənin 3.4-cü bəndində "Komissiya" sözü "Komitə" sözü ilə əvəz edilsin;

3-cü bölmənin 3.9-cu bəndində "Azərbaycan Respublikasının Nazirlər Kabineti" sözləri "Azərbaycan Respublikasının Prezidenti" sözləri ilə əvəz edilsin;

6-cı bölmənin 6.3-cü bəndində "Azərbaycan Respublikasının Nazirlər Kabineti" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi" sözləri ilə əvəz edilsin;

3-cü bölmənin 3.2-ci bəndinin ikinci abzasında, 3.4-cu bəndində, 3.8.-ci bəndinin birinci abzasında, 4-cü bölmənin 6.4-cü bəndində "DƏK" sözü "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi" sözləri ilə əvəz edilsin.

14. "Dövlət müəssisələrinin özəlləşdirilməsi zamanı yaradılmış səhmdar cəmiyyətlərinin və ixtisaslaşdırılmış çek investisiya fondlarının səhmdarlarının reyestrinin aparılması qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 may tarixli 581 nömrəli Fərmanı ilə təsdiq olunmuş Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

5-ci bölmənin 5.6-ci bəndinin ikinci abzasında "Azərbaycan Respublikasının Dövlət Əmlak Komitəsinə" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə" sözləri ilə əvəz edilsin.

(Çıxarılıb) [iv][4]

16. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının ~~Prezidenti yanında~~ Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi bankların, Azərbaycan Respublikasının Milli Bankının qiymətli kağızlarının buraxılışı, tədavülü və emissiya prospektlərinin qeydiyyatı qaydalarının müəyyən edilməsini Azərbaycan Respublikasının Milli Bankının rəyi nəzərə alınmaq şərti ilə həyata keçirir.

17. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının ~~Prezidenti yanında~~ Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi dövlət xəzinə öhdəliklərinin buraxılışı, tədavülü və emissiya prospektlərinin qeydiyyatı qaydalarının müəyyən edilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin rəyi alınmaq şərti ilə həyata keçirir.

18. Azərbaycan Respublikasının Milli Bankına, Azərbaycan Respublikasının Dövlət Əmlak Komitəsinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Fərmandan irəli gələn məsələləri bir ay müddətində həll edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

19. "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 9 sentyabr tarixli 765 nömrəli Fərmanının 1-ci bəndinin dördüncü - on birinci abzasları və 2-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 26 iyul 1999-cu il**
**№ 161**

## ~~Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında~~
## ~~ƏSASNAMƏ~~

### ~~I. ÜMUMİ MÜDDƏALAR~~

~~1. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (bundan sonra — Komitə) Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 dekabr tarixli 58 nömrəli Fərmanına əsasən yaradılmışdır.~~

~~Komitə qiymətli kağızlarla fəaliyyət, o cümlədən qiymətli kağızlar bazarının formalaşdırılması və inkişafı sahəsində dövlət siyasətini, dövlət idarəetməsini və dövlət tənzimlənməsini, müvafiq icra hakimiyyəti orqanlarının fəaliyyəti üzərində nəzarəti və onların fəaliyyətinin əlaqələndirilməsini, qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının fəaliyyəti üzərində nəzarəti həyata keçirən, investorların, səhmdarların və digər qiymətli kağızlar sahiblərinin hüquqlarının və qanuni maraqlarının müdafiəsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.~~

~~Komitənin öz səlahiyyətləri daxilində qəbul etdiyi aktlar digər mərkəzi icra hakimiyyəti orqanları və qiymətli kağızlarla fəaliyyət sahəsində, o cümlədən qiymətli kağızlar bazarındakı subyektlər üçün məcburi xarakter daşıyır və həmin aktların icrasına nəzarət Komitə tərəfindən həyata keçirilir.~~

~~Komitə Azərbaycan Respublikasının Prezidentinə tabedir.~~

~~2. Komitə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Milli Bankı və digər kredit təşkilatları, yerli özünüidarəetmə orqanları, qiymətli kağızlar bazarında fəaliyyət göstərən hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.~~

~~3. Komitə hüquqi şəxsdir, müstəqil balansa, xərclər smetasına, operativ idarəçilik hüququ ilə dövlət mülkiyyətinə, bank idarələrində hesablaşma hesablarına, Azərbaycan~~

Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

4. Komitə Bakı şəhərində yerləşir.

## II. KOMİTƏNİN ƏSAS VƏZİFƏLƏRİ

5. Komitənin əsas vəzifələri aşağıdakılardır:

5.1. qiymətli kağızlarla fəaliyyət sahəsində, o cümlədən qiymətli kağızlar bazarında dövlət siyasətinin işlənib hazırlanmasının və onun həyata keçirilməsinin, dövlət idarəetməsinin və tənzimlənməsinin, nəzarətin təmin edilməsi;

5.2. qiymətli kağızlar bazarının təşkili və inkişaf etdirilməsi, əlverişli investisiya mühitinin yaradılması;

5.3. qiymətli kağızlar bazarında emitentlərin, peşəkar iştirakçıların, fond birjalarının fəaliyyəti üzərində nəzarətin təmin edilməsi;

5.4. qiymətli kağızlar bazarında sağlam rəqabət mühitinin yaradılması;

5.5. qiymətli kağızlar bazarı iştirakçılarının, o cümlədən investorların, səhmdarların və digər qiymətli kağızlar sahiblərinin hüquqlarının müdafiəsinin təmin edilməsi.

## III. KOMİTƏNİN ƏSAS FUNKSİYALARI

6. Komitə ona həvalə olunmuş əsas vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

6.1. qiymətli kağızlarla fəaliyyət sahəsində dövlət idarəetməsinin təşkili, dövlət tənzimlənməsinin və nəzarətin, əlaqələndirmə fəaliyyətinin həyata keçirilməsi;

qiymətli kağızlar bazarının təşkilinin və inkişafının əsas istiqamətlərinə dair təkliflər işləyib hazırlayır, qiymətli kağızlar bazarının vəziyyətini və inkişaf perspektivlərini təhlil edir, qiymətli kağızlar bazarında müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirir;

6.2. qiymətli kağızların emissiyasının və emissiya prospektlərinin, o cümlədən Azərbaycan Respublikası ərazisində qiymətli kağızları emissiya edən xarici emitentlərin emissiya prospektlərinin standartlarını təsdiq edir;

6.3. qiymətli kağızların və qiymətli kağızların emissiya prospektlərinin qeydiyyat qaydalarını təsdiq edir və onların qeydiyyatını həyata keçirir;

6.4. qeydiyyata alınmış qiymətli kağızların vahid dövlət reyestrinin aparılmasına qoyulan tələbləri müəyyən edir və həmin reyestrin aparılmasını təmin edir;

6.5. bütün növ qiymətli kağızların tədavülünün tənzimlənməsini həyata keçirir;

6.6. emitentlər tərəfindən qiymətli kağızların buraxılması və tədavülü şərtlərinə riayət edilməsinə nəzarət edir;

6.7. qiymətli kağızlarla, o cümlədən daşınmaz əmlakla təmin edilmiş qiymətli kağızlarla əməliyyatlara, qiymətli kağızların açıq yerləşdirilməsinə, tədavülünə, kotirovkasına, listinqinə, hesablaşma-depozitar fəaliyyətinə qoyulan məcburi tələbləri müəyyən edir;

6.8. qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin həyata keçirilməsi qaydalarına qoyulan vahid tələbləri, o cümlədən qiymətli kağızlar bazarında sığorta və təminat standartlarını hazırlayır və təsdiq edir;

6.9. qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin — broker, diler, depozitar, qiymətli kağızların idarə edilməsi, qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (klirinq), qiymətli kağızların sahiblərinin reyestrinin aparılması, qiymətli kağızlar bazarında ticarətin təşkili və bu fəaliyyətin qanunla müəyyən edilən digər növləri də daxil olmaqla lisenziyalaşdırılmasını həyata keçirir; v[5]

6.10. Azərbaycan Respublikası ərazisində fond birjalarının fəaliyyətinin lisenziyalaşdırılmasını həyata keçirir;

6.11. investisiya fondlarının, fəaliyyətinin lisenziyalaşdırılmasını həyata keçirir; [vi][6]

6.12. qiymətli kağızlar bazarında investisiya, qeyri-dövlət pensiya və sığorta fondlarının və onların idarəedici şirkətlərinin, habelə bankların və sığorta şirkətlərinin fəaliyyətlərinin standartlarını müəyyən edir;

6.13. qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının öz-özünü tənzimləyən təşkilatlarının fəaliyyəti qaydalarını müəyyən edir və fəaliyyətlərinə nəzarəti həyata keçirir;

6.14. bütün növ qiymətli kağızların blanklarının hazırlanması və satışı üzrə fəaliyyətin lisenziyalaşdırılmasını həyata keçirir; [vii][7]

Azərbaycan Respublikasında dövlət qiymətli kağızlarının blanklarının hazırlanmasını təşkil edir;

6.15. dövlət aksiz markalarının sifarişi, onların satışı və uçotunun aparılması qaydalarını müəyyən edir, bu qaydalara riayət olunmasına və onların tədavülünə nəzarəti həyata keçirir;

6.16. emitentlər, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının öz-özünü tənzimləyən təşkilatları tərəfindən Azərbaycan Respublikasının qiymətli kağızlar üzrə qanunvericiliyinə, o cümlədən Komitənin təsdiq etdiyi standart, tələb və qaydalara riayət edilməsinə nəzarət edir;

6.17. xarici hüquqi şəxslərin və xarici fiziki şəxslərin qiymətli kağızlar bazarında iştirakı və bazara buraxılış qaydalarını müəyyən edir və onların fəaliyyətinə nəzarəti həyata keçirir;

6.18. xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikası ərazisində tədavülünü, o cümlədən daxili qiymətli kağızlar bazarında tədavülə buraxılışını tənzimləyir, onların fəaliyyətinə nəzarəti həyata keçirir;

6.19. Azərbaycan Respublikası ərazisində qeydiyyata alınmış emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasının hüdudlarından kənarda ilkin yerləşdirilməsi və tədavülünə icazə verilməsi qaydalarını müəyyən edir;

6.20. bütün növ qiymətli kağızlarla girovun, qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin qeydiyyatını aparır;

6.21. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bütün növ lotereyaların təsnifatlaşdırılmasını həyata keçirir; Azərbaycan Respublikası ərazisində bütün növ lotereyaların buraxılışına, təşkilinə və keçirilməsinə dair tələbləri müəyyən edir və nəzarəti həyata keçirir. [viii][8]

Azərbaycan Respublikası ərazisində bütün növ lotereyaların buraxılışına, təşkilinə və keçirilməsinə dair tələbləri müəyyən edir və nəzarəti həyata keçirir;

6.22. fond birjalarının, qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının attestasiya qaydalarını müəyyən edir;

6.23. emitentlər tərəfindən Azərbaycan Respublikasında dövriyyədə olan qiymətli kağızlarla aparılmış əməliyyatlara dair hesabatları yoxlayır;

6.24. qiymətli kağızlar bazarında hamı üçün açıq olan informasiya sisteminin yaradılmasını təmin edir və müəyyən edilmiş qaydalara riayət edilməsinə nəzarəti həyata keçirir;

6.25. emitentlərin, qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının, fond birjalarının mühasibat balanslarını nəzərdən keçirir;

6.26. qiymətli kağızlarla əməliyyatların həyata keçirilməsi məsələləri üzrə, qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının və fond birjalarının fəaliyyəti üzrə mühasibat uçotunun və hesabatının təşkilinin vahid metodoloji əsaslarının müəyyənləşdirilməsində iştirak edir;

6.27. qiymətli kağızlar bazarında investorların, səhmdarların və qiymətli kağız sahiblərinin hüquqlarının və qanuni maraqlarının müdafiəsini həyata keçirir;

6.28. qiymətli kağızlar bazarında açıqlanması zəruri olan məlumatların alınması üçün bərabər olan şəraitin təşkil edilməsini təmin edir;

6.29. qiymətli kağızlar bazarında qanunvericiliyə uyğun olaraq reklam haqqında qaydaları müəyyən edir;

6.30. qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının tədrisini və yenidən hazırlanmasını təşkil edir;

6.31. qiymətli kağızlar bazarının inkişafı məsələləri üzrə tədqiqatlar aparılmasını təşkil edir;

6.32. qanunvericiliklə müəyyən edilmiş qaydada beynəlxalq əlaqələri və əməkdaşlığı həyata keçirir;

Komitənin fəaliyyəti ilə bağlı beynəlxalq müqavilələrin (sazişlərin) layihələrini hazırlayır (və ya hazırlanmasında iştirak edir), beynəlxalq konfransların, seminarların və sair beynəlxalq tədbirlərin keçirilməsini təşkil edir və ya onların işində iştirak edir;

6.33. qanunvericiliyə uyğun olaraq digər funksiyaları həyata keçirir.

## IV. KOMİTƏNİN HÜQUQLARI

7. Komitənin öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqları vardır:

7.1. müəyyən edilmiş qaydada öz səlahiyyətlərinə aid olan məsələlərə dair nazirliklər və digər mərkəzi icra hakimiyyəti orqanları, banklar və kredit təşkilatları, yerli icra hakimiyyəti orqanları, bələdiyyələr, hüquqi və fiziki şəxslər üçün icrası məcburi aktlar qəbul etmək;

öz səlahiyyətlərinə aid olan məsələlərə dair mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyəti üzərində nəzarəti həyata keçirmək;

7.2. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qiymətli kağızların təsnifatlaşdırılmasını həyata keçirmək və növlərini müəyyən etmək;

7.3. qiymətli kağızlarla bağlı və qiymətli kağızlar bazarında fəaliyyəti tənzimləyən normativ hüquqi aktları qəbul etmək;

7.4. Azərbaycan Respublikasında maliyyə bazarının, o cümlədən qiymətli kağızlar bazarının dövlət tənzimlənməsi ilə bağlı Komitə ilə razılaşdırılmamış və ya Azərbaycan Respublikasının qanunvericiliyinə, habelə bu Əsasnamə ilə müəyyən edilmiş qaydalara zidd olan normativ hüquqi aktların qüvvəsinin dayandırılması və ya ləğv olunması barədə Azərbaycan Respublikası Prezidentinə təkliflər vermək;

7.5. Komitənin səlahiyyətlərinə aid olan məsələlərin həlli məqsədi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının nazirliklərindən və digər mərkəzi icra hakimiyyəti orqanlarından, Azərbaycan Respublikasının Milli Bankından, dövlət və kommersiya banklarından, dövlət şirkət və konsernlərindən, yerli icra hakimiyyəti orqanlarından, bələdiyyələrdən, hüquqi şəxslərdən və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən qiymətli kağızlar bazarında onların fəaliyyətinə dair zəruri məlumatları sorğu etmək və almaq;

7.6. qiymətli kağızların bütün növlərinin buraxılışının və emissiya prospektlərinin qeydiyyatını aparmaq;

7.7. Azərbaycan Respublikası ərazisində qiymətli kağızlarının qeydiyyatı, buraxılması və tədavülü qaydalarını müəyyən etmək;

7.8. dövlət qiymətli və bələdiyyə kağızlarının buraxılması qaydalarını, onların yerləşdirilməsi və tədavülü şərtlərini müəyyən etmək;

7.9. Azərbaycan Respublikasında xarici emitentlərin qiymətli kağızlarının tədavülünü nizamlamaq;

7.10.emissiya baş tutmadığı hallarda investorların vəsaitinin qaytarılması qaydalarını müəyyən etmək;

7.11.emitent tərəfindən buraxılan emissiya qiymətli kağızlarının yerləşdirilməsinin müddətini müəyyən etmək;

7.12.qiymətli kağızların yerləşdirilməsinin gedişi barədə hesabatları təsdiq etmək;

7.13.emissiya qiymətli kağızlarının yerləşdirilməsi başa çatdıqdan sonra qanunla müəyyən edilmiş müddətdə emitentdən emissiya qiymətli kağızlarının buraxılışının nəticələri haqqında hesabat almaq və qanunla müəyyən edilmiş tələblərə riayət edildikdə onu qeydə almaq;

7.14.haqsız emissiya nəticəsində buraxılmış qiymətli kağızların bundan sonrakı yerləşdirilməsini dayandırmaq və bu məqsədlə tədbirlər görmək;

emitent tərəfindən qiymətli kağızların haqsız emissiyası ilə əlaqədar olan pozuntular aradan qaldırıldığı halda qiymətli kağızların sonrakı yerləşdirilməsinə qanunvericiliklə müəyyən edilmiş qaydada icazə vermək;

7.15.qiymətli kağızlar bazarında peşəkar fəaliyyət növlərinə: broker, diler, qiymətli kağızların idarə edilməsi, qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (klirinq), depozitar, qiymətli kağızların sahiblərinin reyestrinin aparılması, qiymətli kağızlar bazarında ticarətin təşkili üzrə və qanuna müvafiq müəyyən edilən digər peşəkar fəaliyyətlərə lisenziyalar vermək;

7.16.qiymətli kağızlar bazarında peşəkar iştirakçıların fəaliyyətinə nəzarəti həyata keçirmək və həmin fəaliyyət qiymətli kağızlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyinin pozulması ilə həyata keçirildiyi hallarda verilmiş lisenziyaları dayandırmaq və ya ləğv etmək;

7.17.qiymətli kağızlarla peşəkar fəaliyyətin həyata keçirilməsi qaydalarını müəyyən etmək;

7.18.emitentlərə və qiymətli kağızlar bazarının peşəkar iştirakçılarına, habelə qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının öz-özünü tənzimləyən təşkilatlarına qiymətli kağızlar bazarında fəaliyyətin həyata keçirilməsi ilə bağlı icrası məcburi olan göstərişlər vermək;

7.19.sərmayəçilərin və digər qiymətli kağızların sahiblərinin hüquqlarının müdafiəsi və onların hüquqlarına emitentlər və qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən riayət edilməsinə nəzarət etmək;

7.20.qiymətli kağızlar haqqında qanunvericilik pozulduqda, qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq hüquq-mühafizə orqanlarına müraciət etmək və məhkəmədə iddialar qaldırmaq;

7.21.Azərbaycan Respublikası ərazisində qeydiyyatdan keçmiş emitentlər tərəfindən buraxılmış qiymətli kağızların Azərbaycan Respublikası ərazisindən kənarda yerləşdirilməsinə dövlətlərarası müqavilələr (sazişlər) nəzərə alınmaqla icazə vermək;

7.22. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bütün növ lotereyaların təsnifatlaşdırılmasını həyata keçirmək; Azərbaycan Respublikası ərazisində bütün növ lotereyaların buraxılışına, təşkilinə və keçirilməsinə dair tələbləri müəyyən etmək və nəzarəti həyata keçirmək; ix[9]

Azərbaycan Respublikası ərazisində bütün növ lotereyaların buraxılışına, təşkilinə və keçirilməsinə dair tələbləri müəyyən etmək və nəzarəti həyata keçirmək;

7.23.bütün növ qiymətli kağızlarla girovun, qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin girovunun qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatını aparmaq;

7.24.emissiya prospekti qeydə alınarkən (özəlləşdirmə prosesində emissiya prospektlərinin qeydə alınması istisna olmaqla) dövlət rüsumunun məbləğini və ödənilməsi qaydasını müəyyən etmək;

7.25.qiymətli kağızlar bazarında peşəkar iştirakçılara lisenziya verilməsi üçün dövlət rüsumunun məbləğinə dair təklifləri və ödənilməsi qaydalarını hazırlamaq; x[10]

7.26.Komitənin səlahiyyətlərinə aid olan məsələlərin işlənib hazırlanması, o cümlədən qiymətli kağızlar bazarının təşkili və inkişafı, normativ hüquqi aktların layihələrinin işlənib hazırlanması, onların ekspertizasının keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada xarici və yerli məsləhətçiləri və ekspertləri, məsləhətçi şirkətləri müqavilə (kontrakt) əsasında cəlb etmək;

7.27.əvəzsiz maliyyə və texniki yardım hesabına Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının dəstəklənməsi və inkişafı üçün xüsusi hesablar açmaq və onlardan istifadə etmək;

7.28.qanunvericiliklə müəyyən edilmiş qaydada qiymətli kağızlar bazarı sahəsində beynəlxalq əlaqələri həyata keçirmək, o cümlədən beynəlxalq təşkilatların və digər beynəlxalq qurumların işində iştirak etmək, Komitəyə həvalə edilmiş məsələlər üzrə xarici və beynəlxalq təşkilatlarla danışıqlar aparmaq, idarələrarası müqavilələr (sazişlər) bağlamaq, Komitənin səlahiyyətlərinə aid edilmiş məsələlərdə Azərbaycan Respublikasını təmsil etmək;

7.29.Komitənin səlahiyyətlərinə aid edilən məsələlərin həlli məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq hüquqi şəxslər yaratmaq;

7.30.qanunvericiliklə müəyyən edilmiş qaydada qiymətli kağızlar haqqında qanunvericiliyi pozan şəxsləri inzibati məsuliyyətə cəlb etmək, onlar barəsində inzibati tənbeh tədbirləri tətbiq etmək;

7.31.qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## V. KOMİTƏNİN FƏALİYYƏTİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ

8. Komitənin fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsindən icra hakimiyyəti orqanlarının saxlanılmasına yönəldilən vəsaitlər hesabına maliyyələşdirilir. Komitə həmin vəsaitlərin sərəncamçısıdır.

9. Komitənin xərclər smetası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunur.

## VI. KOMİTƏNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

10. Komitəyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan sədr rəhbərlik edir.

Komitənin sədri Komitəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və onun funksiyalarının həyata keçirilməsi üçün şəxsi məsuliyyət daşıyır.

Komitənin sədrinin bir birinci müavini və iki müavini vardır. Onlar Komitənin sədrinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad edilir.

10-1. Komitənin strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Komitənin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir. xi[11]

11. Komitənin Sədri;

11.1. Komitənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

11.2. Komitənin sədrinin müavinləri arasında vəzifə bölgüsü aparır;

11.3. müəyyən edilmiş əmək haqqı fondu və işçilərin son say həddi daxilində Komitənin mərkəzi aparatının strukturunu və ştat cədvəlini, Komitənin mərkəzi aparatının struktur bölmələrinin və onun tabeliyində olan digər qurumların əsasnamələrini, mərkəzi aparatın iş planını, habelə müvafiq dövr üçün ayrılan büdcə təxsisatı daxilində Komitənin mərkəzi aparatının saxlanılması xərclərinin smetasını təsdiq edir;

11.4. Komitənin mərkəzi aparatının işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərini görür;

11.5. Komitənin tabeliyində hüquqi şəxslərin nizamnamələrini (əsasnamələrini) təsdiq edir, onların rəhbərlərini vəzifəyə təyin edir və vəzifədən azad edir;

11.6. Komitənin regional bölmələri yaradıldığı halda, onların rəhbərlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, həmin bölmələrin əsasnamələrini təsdiq edir;

öz səlahiyyətləri daxilində Komitənin mərkəzi aparatının və regional bölmələrinin, habelə tabeliyində olan hüquqi şəxslərin və başqa qurumların fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir, habelə təlimatlar və digər normativ hüquqi aktlar qəbul edir, onların icra olunmasını təşkil edir və yoxlayır;

(Çıxarılıb) [xii][12]

11.8. Komitənin səlahiyyətlərinə aid olunmuş məsələlərə dair qanun layihələrini, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

11.9. öz səlahiyyətləri daxilində dövlət orqanlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin təklif, ərizə və şikayətlərinə müəyyən edilmiş qaydada baxıb, onlarda qaldırılan məsələləri həll edir, Komitənin mərkəzi aparatında və regional bölmələrində, habelə Komitənin tabeliyindəki hüquqi şəxslərin və digər qurumların işində yol verilən nöqsanların aradan qaldırılmasına dair konkret tədbirlər görür;

11.10. Komitədə kargüzarlığın operativ, dəqiq və düzgün aparılmasını, habelə qanunvericiliklə müəyyən edilmiş qaydada işdə dövlət sirrinin saxlanılmasını təmin edir;

11.11. Komitədə ilkin uçot və hesabatı təşkil edir, hesabat balanslarını təsdiq edir, mühasibat uçotu və hesabat işlərinin düzgün aparılmasına nəzarət edir;

11.12. Komitənin maliyyə vəsaitlərinə və əmlakı barəsində müəyyən edilmiş qaydada sərəncam verir;

11.13. öz səlahiyyətləri daxilində və qanunvericiliklə müəyyən edilmiş qaydada beynəlxalq əlaqələrdə iştirak edir, o cümlədən beynəlxalq əməkdaşlığa dair danışıqlar aparır, idarələrarası müqavilələr (sazişlər) bağlayır, müvafiq beynəlxalq təşkilatlarda, beynəlxalq tədbirlərdə Azərbaycan Respublikasını təmsil edir, beynəlxalq tədbirlərin Azərbaycan Respublikasında keçirilməsini təşkil edir;

11.14. qiymətli kağızlar haqqında qanunvericiliyə zidd olan normativ hüquqi aktların qüvvəsinin dayandırılması və ləğv edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə təkliflər verir;

11.15. öz səlahiyyətləri daxilində və qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada qiymətli kağızlar haqqında qanunvericiliyin pozulmasında təqsiri olan şəxsləri inzibati məsuliyyətə cəlb edir, inzibati xətalar haqqında işlərə baxır və müvafiq inzibati tənbeh tədbirləri tətbiq edir; [xiii][13]

11.16. Komitəni dövlət orqanlarında, bələdiyyə orqanlarında, məhkəmələrdə, hüquqi şəxslərlə və fiziki şəxslərlə münasibətlərdə təmsil edir, Komitənin adından vəkalətnaməsiz çıxış edir, vəkalətnamələr verir;

11.17. Azərbaycan Respublikasının digər dövlət orqanları ilə Komitənin qarşılıqlı fəaliyyətini təmin edir;

11.18. Komitənin səlahiyyətlərinə aid məsələlərlə bağlı təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

11.19. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

12. Komitə qiymətli kağızlar bazarının vəziyyəti və fəaliyyəti barədə hesabatları mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

13. Komitə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş fond bazarının fəaliyyətinin norma, qayda və şərtlərin yerinə yetirilməsinin, Komitə tərəfindən qəbul edilən qərarların və qiymətli kağızlar bazarının fəaliyyəti üzərində nəzarətin təmin edilməsi məqsədi ilə Komitənin regional bölmələrini yarada bilər.

14. Komitənin öz səlahiyyətlərinə aid olan məsələlər üzrə qəbul etdiyi aktların icrası müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanları, banklar və digər kredit təşkilatları,

~~bələdiyyələr, habelə qiymətli kağızlar bazarının peşəkar iştirakçıları və onların öz-özünü tənzimləyən təşkilatları üçün məcburidir.~~

~~15. Qiymətli kağızlarla fəaliyyət sahəsində, o cümlədən qiymətli kağızlar bazarının tənzimlənməsi məsələlərinə, qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının və onların öz-özünü tənzimləyən təşkilatlarının fəaliyyətinə aid normativ-hüquqi aktlar Azərbaycan Respublikasının Milli Bankı və mərkəzi icra hakimiyyəti orqanları tərəfindən onların səlahiyyətləri çərçivəsində və yalnız Komitə ilə razılaşdırmaqla qəbul edilir.~~

~~16. Komitədə tərkibi onun sədrindən (kollegiyanın sədri), vəzifəsinə görə kollegiyanın tərkibinə daxil olan Komitə sədrinin müavinlərindən, Komitənin mərkəzi aparatının rəhbər işçilərindən ibarət kollegiya yaradılır.~~

~~17. Komitənin kollegiyasının üzvlərinin şəxsi tərkibi (vəzifəsinə görə daxil olanlar istisna olmaqla) Komitənin sədrinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.~~

~~18. Komitənin kollegiyası özünün müntəzəm keçirdiyi iclaslarında Komitənin səlahiyyətlərinə aid edilən məsələləri nəzərdən keçirir.~~

~~Komitənin kollegiyasının iclasları kollegiyanın üzvlərinin üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Komitənin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir və protokol formasında rəsmiləşdirilir, zəruri olduqda onlar Komitənin sədrinin əmrləri ilə həyata keçirilir. Kollegiyanın iclasında səslər bərabər bölündükdə kollegiyanın sədrinin səsi həlledici hesab edilir.~~

~~19. Komitənin nəzdində məsləhət-məşvərət orqanı olan Ekspert Şurası yaradıla bilər. Ekspert Şurasının tərkibinə maliyyə bazarının və qiymətli kağızlar bazarının tənzimlənməsi ilə bağlı olan müvafiq icra hakimiyyəti orqanları və təşkilatlarının nümayəndələri, habelə qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının, onların öz-özünü tənzimləyən təşkilatlarının nümayəndələri və müstəqil ekspertlər daxil edilir.~~

~~20. Komitə onun üzərinə qoyulmuş vəzifələri həyata keçirmək məqsədi ilə müəyyən edilmiş qaydada jurnal, bülleten və digər nəşrlər dərc edir.~~

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 23 oktyabr 2003-cü il tarixli 980 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 585**)
2. 3 avqust 2004-cü il tarixli 109 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 8, maddə 617**)
3. 14 sentyabr 2004-cü il tarixli 124 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 9, maddə 678**)
4. 10 oktyabr 2005-ci il tarixli Fərman ("**Azərbaycan" qəzeti, 25 oktyabr 2005-ci il, № 247**)
5. 12 sentyabr 2008-ci il tarixli 826 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 13 sentyabr 2008-ci il, № 205, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 9, maddə 798)**
6. 11 noyabr 2008-ci il tarixli 14 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 noyabr 2008-ci il, № 261, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 11, maddə 970**)
7. 5 mart 2009-cu il tarixli **70** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 6 mart 2009-cu il, № 52, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №03, maddə 162)**
8. 9 iyul 2009-cu il tarixli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 10 iyul 2009-cu il, № 148)**

# FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

---

i[1] 9 iyul 2009-cu il tarixli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 10 iyul 2009-cu il, № 148)** ilə adından, preambuladan, 2-ci bənddən, 3-cü bəndin ikinci abzasından, 16-cı və 17-ci bəndlərdən **“Prezidenti yanında”** sözləri çıxarılmışdır və 6-cı və 7-ci bəndlər çıxarılmışdır.

ii[2] 5 mart 2009-cu il tarixli **70** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 6 mart 2009-cu il, № 52, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №03, maddə 162)** ilə Fərmanının 1-ci bəndi qüvvədən düşmüş hesab edilmişdir.

iii[3] 14 sentyabr 2004-cü il tarixli 124 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 9, maddə 678**) ilə 3-cü bəndinin ikinci abzası çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~bütün növ qiymətli kağızlarla girovun dövlət qeydiyyatını Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi həyata keçirir.~~

iv[4] 23 oktyabr 2003-cü il tarixli 980 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 585**) ilə 15-ci bənd çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~15. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 4 oktyabr tarixli 637 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xüsusi razılıq (lisenziya)" tələb olunan fəaliyyət növlərinin və onları verən icra hakimiyyəti orqanlarının Siyahısı"nda aşağıdakı dəyişikliklər və əlavələr edilsin:~~

~~1. 21-ci bəndin "b)" abzası aşağıdakı redaksiyada verilsin:~~

| | |
|---|---|
| ~~"b) Fond birjası üzrə~~ | ~~Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi;~~ |

~~31-ci və 32-ci bəndləri müvafiq olaraq aşağıdakı redaksiyada verilsin:~~

| | |
|---|---|
| ~~"31. Bütün növ lotereyaların buraxılışı, təşkili və keçirilməsi~~ | ~~Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi~~ |
| ~~32. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının fəaliyyəti~~ | ~~Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə dövlət Komitəsi~~ |

~~34-cü və 35-ci bəndlər müvafiq olaraq aşağıdakı redaksiyada verilsin:~~

| | |
|---|---|
| ~~34. İxtisaslaşdırılmış çek investisiya fondları~~ | ~~Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi~~ |
| ~~35. Dövlət özəlləşdirmə paylarının (çeklərinin) alğı-satqısı~~ | ~~Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi~~ |

~~aşağıdakı redaksiyada 66-cı bənd əlavə edilsin;~~

| | |
|---|---|
| ~~66. Bütün növ qiymətli kağızların blanklarının hazırlanması~~ | ~~Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi~~ |

v[5] 12 sentyabr 2008-ci il tarixli 826 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 13 sentyabr 2008-ci il, № 205, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 9, maddə 798)** ilə 6.9-cu, 6.10-cu, 6.11-ci və 6.14-cü bəndlərində **“lisenziyalaşdırılması qaydalarını hazırlayır, onları”** sözləri **“lisenziyalaşdırılmasını”** sözü ilə əvəz edilmişdir.

vi[6] 23 oktyabr 2003-cü il tarixli 980 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 585**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 6.11-ci bəndindən "**o cümlədən, ixtisaslaşdırılmış çek investisiya fondlarının**" sözləri çıxarılmışdır.

vii[7] 23 oktyabr 2003-cü il tarixli 980 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 585**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 6.14-cü bəndində "**hazırlanması**" sözündən sonra "**və satışı**" sözləri əlavə edilmişdir.

viii[8] 23 oktyabr 2003-cü il tarixli 980 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 585**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 6.21-ci bəndi yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~6.21. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bütün növ lotereyaların təsnifatlaşdırılmasını həyata keçirir;~~

ix[9] 23 oktyabr 2003-cü il tarixli 980 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 10, maddə 585**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 7.22-ci bəndi yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~7.22. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bütün növ lotereyaların təsnifatlaşdırılmasını həyata keçirir;~~

x[10] 12 sentyabr 2008-ci il tarixli 826 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 13 sentyabr 2008-ci il, № 205, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 9, maddə 798)** ilə 7.25-ci bəndindən **“və ödənilməsi qaydalarını”** sözləri çıxarılmışdır.

xi[11] 11 noyabr 2008-ci il tarixli 14 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 21 noyabr 2008-ci il, № 261, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 11, maddə 970**) ilə «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə»yə yeni məzmunda 10-1-ci bənd əlavə edilmişdir.

xii[12] 10 oktyabr 2005-ci il tarixli Fərman (“**Azərbaycan” qəzeti, 25 oktyabr 2005-ci il, № 247**) ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin 11.7-ci bəndi çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~11.7. Komitənin səlahiyyəti çərçivəsində dövlət sirrinə aid olan məlumatların siyahısını müəyyən edir;~~

xiii[13] 3 avqust 2004-cü il tarixli 109 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 8, maddə 617**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 11.15-ci bəndində "**hüquqpozmalar**" sözü "**xətalar**" sözü ilə əvəz edilmişdir.